A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

S Ə R Ə N C A M I

№ 224 "16" 08 2021-ci il

**"Binəqədi rayonunda 27 Sentyabr Anım Gününün qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında**

27 Sentyabr Anım Gününün qeyd edilməsi ilə bağlı "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.22 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** "Binəqədi rayonunda 27 Sentyabr Anım Gününün qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının müavini, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.

**3.** Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“16” 09 2021-ci il tarixli**
**224 saylı Sərəncamı ilə təsdiq edilmişdir**

**27 Sentyabr Anım Gününün qeyd edilməsi ilə bağlı**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Vətən Müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidələrin, habelə şəhid məzarlıqlarının, barelyeflərinin, şəkil lövhələrinin təmizlənməsi, bərpası və ətrafının abadlaşdırılması | Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon MKTB və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>İ.Cahangir-zadə<br>A.Kərimov<br>E.Zamanov | 13-27 sentyabr 2021 |
| 2. | Rayonda dövlət qurumlarının rəhbərləri və ictimaiyyət nümayəndələri tərəfindən Vətən Müharibəsi şəhidlərinin ailələrinin ziyarət edilməsi | Rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilatlar | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>Y.Hüseynov<br>Y.Əliyev<br>S.Mənəfov<br>A.Kərimov<br>S.Əliyev | 13-27 sentyabr 2021 |
| 3. | Rayon ərazisində yerləşən rəqəmsal bilbord və monitorlarda Vətən Müharibəsi şəhidlərinin şəkillərinin və adlarının 44 gün ərzində əks olunmasının təşkil edilməsi | Rayon İcra Hakimiyyəti və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>Y.Əliyev<br>S.Mənəfov<br>A.Kərimov | 20-27 sentyabr 2021 |
| 4. | Binəqədi şəhidlərinin xatirəsinə ucaldılmış “Memorial Abidə Kompleksi” önündə anım tədbiri | Rayon İcra Hakimiyyəti və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>Y.Hüseynov<br>Y.Əliyev<br>S.Mənəfov<br>A.Kərimov<br>S.Əliyev | 27 sentyabr 2021 |

| | | | | |
|---|---|---|---|---|
| 5. | Binəqədi qəsəbəsində Vətən Müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidənin və şəhid məzarlıqlarına Vətən Müharibəsi iştirakçılarının, ziyalı və ağsaqqalların, idarə, müəssisə və təşkilatların kollektivlərinin, gənclərin, şagirdlərin gün ərzində qrafik əsasında ziyarətlərinin təşkil olunması | Rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilatlar və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>Y.Hüseynov<br>Y.Əliyev<br>S.Mənəfov<br>A.Kərimov<br>S.Əliyev | 27 sentyabr 2021 |
| 6. | Rayon ərazisindəki məscidlərdə Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq dini mərasimlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti, Sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndəliklər və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahagir-zadə<br>E.Məmmədov | 27 sentyabr 2021 |
| 7. | Xocəsən qəsəbəsi Motodrom yaşayış sahəsində ağacəkmə aksiyasının təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik və Xocəsən Bələdiyyəsi (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahagir-zadə<br>A.Kərimov<br>T.Abdullayev<br>N. Məmmədov | 27 sentyabr 2021 |
| 8. | Anım gününün qeyd edilməsi ilə bağlı təhsil, məktəbəqədər təhsil və mədəniyyət müəssisələrində tədbirlərin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Rayon Gənclər və İdman İdarəsi, Binəqədi Gənclər Evi SXM | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev<br>Ə.Mustafayev | 20-27 sentyabr 2021 |
| 9. | Vətən Müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi ilə əlaqədar qəsəbə və mikrorayon ərazilərində gün ərzində Azərbaycan Respublikası Dövlət bayrağının endirilməsi və ya dirəyinin yuxarı hissəsinə qara lentin bərkidilməsi | Rayon İcra Hakimiyyəti, Sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, Binəqədi Rayon MKTB və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahagir-zadə<br>E.Zamanov | 27 sentyabr 2021 |

| | | | | |
|---|---|---|---|---|
| 10. | 27 sentyabr saat 12.00-da rayon ərazisində Vətən Müharibəsinin şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi barədə əhalinin, habelə bütün idarə, müəssisə və təşkilatların rəhbərlərinin məlumatlandırılıması, küçə, prospekt və meydanlarda insanların və nəqliyyat vasitələrinin hərəkətlərinin dayandırılması ilə bağlı zəruri tədbirlərin görülməsi | Rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilatlar, Binəqədi Rayon MKTB və Bələdiyyələr (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahangir-zadə<br>Y.Hüseynov<br>Y.Əliyev<br>S.Mənəfov<br>A.Kərimov<br>S.Əliyev<br>E.Zamanov | 27 sentyabr 2021 |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Nicat Allahverdiyev**